# 300 yaşlı Robinzon Kruzo

Böyük Britaniyada BBC tərəfindən dünyamızı formalaşdıran 100 roman haqqında yeni bir serial başlandı. İngilis ədəbi tarixinə geniş miqyaslı səyahət etsək ilk ingilis romanının başlanğıc nöqtəsi kimi qiymətləndirilən "Robinzon Kruzonun həyatı və qəribə gözlənilməz macəraları" rastlaşmış olarıq.

Yarımçıq süjetə və çox saylı struktur səhvlərinə baxmayaraq, Robinzon Kruzonun - gəmi qəzasına uğrayan bir dənizçinin hekayəsi son 300 ildə ədəbiyyata (və ümumiyyətlə, müasir dünyaya) güclü təsir göstərmişdir. Əvvəllər mövcud olan nəsrin zəngin olmasına baxmayaraq, bəzi alimlər Daniel Defonun kitabını romanın əlamətlərinə çevrilən bütün elementləri özündə birləşdirən bir ilk olduğuna inanırlar. Bu bədii maskarad bir fakt kimi kapitan tərəfindən bir adaya sürgün olunduqdan sonra dörd il dörd ay dənizdə hər şeydən təcrid olunmuş şəkildə keçirən Şotlandiya dənizçisi Aleksandr Selkirkin gerçək həyatdakı bədbəxtliklərinin təzahürüdür. Daniel Defonun romanı real təhlükə ilə üz-üzə qalan bir hekayədir. Lakin bu roman həm də Xristian günahının düşünməyə vadar edən hekayəsi, kapitalist fərdiliyinin tənqidi, imperialist paranoyyanın ifşa olunması və hətta insan ruhunun zəfəridir. Yerlilərin nöqteyi-nəzərindən, bu işğal mifidir - Kruzo Avropa inanc sistemlərini onlara yükləyən günəşdə yanmış bir cindir. Burada hekayəni danışan tərəfindən Cümənin yamyamların əlindən "qurtarması" və onu qanadlarının altına alması, ağ hökmranlığın irqçi bir ideologiyasını dəstəkləməsindən başqa bir şey yoxdur. Ancaq Cüməni əsl qəhrəman kimi düşünə bilərik. Onun təzyiq altındakı təvazökarlığı və nəzakəti istənilən mədəniyyətdə hər kəs üçün dayanıqlı bir personaj olaraq xidmət edir. Və onun həssas görünüşünə ilk dəfə onun dolu silahın partlayıcı effektini görməsi



yeganə məntiqi cavabdır.

Birdə Xuri var, Kruzonun təsadüfən Portuqaliyaya satdığı şən və cazibədar bir oğlan (yəqin ki, razılaşdırılmış əsaslarla on illik xidmətdən və xristianlığı qəbul etdikdən sonra oğlan azadlığa çıxacaq). Bundan əvvəl, Xuri özünün dəhşətli bir seçimi ilə üzləşdi: o ya Kruzonun iradəsinə tabe olmalı idi, ya da özünü dənizə atmalı idi. Bütün bunlar Kruzo gəmi qəzasına uğramadan qısa müddət əvvəl baş verdi. Ani karma, bəlkə?

Defo, əlbəttə ki, vizual motivlərin ustasıdır və Kruzonun silahı xüsusilə güclüdür - o, bir tərəfdən avropalıların mənəvi çatışmazlıqlarına işarə edərkən digər tərəfdən onların texnoloji üstünlüklərini nümayiş etdirir. Ancaq müharibə doğru bir sivilizasiya yarada bilməzdi.

Yeddi il sonra Conatan Svit "Qulliverin səyahəti"ndə motivləri pozdu, burada miniatür qəhrəman müasir silahlarla İngiltərənin igidliyi ilə öyünərək soylu nəhənglərin heyran tamaşaçılarına lovğalanır. Qulliver kimi Kruzo da yad ölkələrdə çətin vəziyyətlərdə qalsa da, eyni zamanda öz vətənindəki cəmiyyətin uğursuzluqlarını təcəssüm etdirir.

Defonun hekayəsindəki ən dəhşətli məqam heç kimin olmadığı zaman baş verir. Kruzo zahirən tərk edilmiş adasında qumda bir iz ilə qarşılaşır. Ayaq izi dərin bir şüur böhranına səbəb olur. Bu izi kim buraxıb? Dost, ya düşmən? Adam, yoxsa qulyabani? Xilas ola biləcək, yoxsa vəhşicəsinə öldürüləcək? OBu əsrlər boyu dünya mədəniyyətində təkrarlanan bir səhnədir. Amerikadakı Çin mühacirlərinin həyatının sıx toxunmuş nağılı olan Maxine Hong Kinqstonun qısa hekayə kolleksiyasında insan izinə rast gəldiyi zaman huşunu itirən Lo Bun Sun adlı dənizçi haqqında bir hekayə vardır. Külək və yağış izi yox elədikdən sonra da onu heyran etməyə davam edir - immiqrantın yaşadığı təcrübənin fasiləsiz emosional qarışıqlıqları, bəlkə də, hətta müstəmləkə eksklüzivliyini istehza ilə qəbul etməsi barədə də bir misaldır.

Defonun 17-ci əsrdə gəmi qəzasına uğramış dənizçisinin hekayəsi o qədər məşhurdur ki, "Robinzonad" adı ilə tanınan - Ceyms Quld Kozzens və Con Maksvel Kutze kimi müəlliflərin də töhfə verdiyi böyük və sərbəst bir janrın yaranmasına səbəb olmuşdur. Qısa bir izah olaraq onu (adının şərti olaraq adlandırılan "Robinzon") adətən, yaşanılmaz bir adada və ya bir planetdə, sivilizasiyanın rahatlığından qəfil təcrid olunduğu bir hekayə adlandıra bilərik. Ancaq Robinzonad bir roman olmamalıdır: Robinzon Kruzonun əsas personajları, mövzuları və parametrləri həmişə qeyri-fantastik janrlarda, şeirlər, pyeslər, pantomimalar, filmlər, reklamlar və ümumiyyətlə, maddi mədəniyyət olaraq yenidən işlənmişdir.

Ədəbiyyat xaricində ən məşhur müasir nümunə Kast Hevay 2000-ci ildə Tom Hanksın FedEx icraçısı Çak rolunda oynadığı filmdir. Dörd il boyunca boş bir tropik adada qapalı qalan Çak ürəyi ağrıyan və yola davam edən sevgilisi Kellinin (Helen Hant) qucağına qayıtmaq istəyir. Çak İngiltərənin iqtisadi tərəqqisini formalaşdıran protestant iş etikasının tərəfdarı olduğunu iddia etsə də, macəra arxasınca müdrik və ağır atasının xəbərdarlıqlarını rədd edən məkrli Kruzodan daha fərqli ola bilməzdi. Paranoik, günahkar, ikiüzlü və bundan daha çox, Kruzo qəhrəman deyil. Lakin o, qüsurlu bir qəhrəman modeli qurdu, hansı ki hələdə İngilis mədəniyyətinin mərkəzindədir.

**İngilis dilindən tərcümə etdi:**
**Mətanət Şükürova**

Kaspi 2020.- 18-21 yanvar.- S.21.